**Təsdiq edilmişdir:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
müavini Samir Şərifov

21.02.2025-ci il

**Dünya Bankı Qrupunun “Business Ready” hesabatının “Vergitutma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2025-ci il üzrə Yol Xəritəsi**

| Sıra №-si | Alt komponentlərin tələbləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| **I. Vergi qaydalarının aydınlığı və şəffaflığı** | | | | | |
| ***1.1. Vergi qanunvericiliyi və inzibatçılığının aydınlığı*** | | | | | |
| 1.1.1. | Vergi qanunvericiliyi və inzibatçılığının sahibkarlara çatdırılması | 1. Biznes mühiti ilə bağlı rəy/münasibət (feedback) əldə edilməsinə imkan verən müvafiq sorğuların onlayn qaydada keçirilməsi və nəticələrinin qiymətləndirilməsi | İl ərzində (rübdə 1 dəfədən az olmamaqla) | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Rövşən Məmmədov, Elçin Məmmədov, Nicat İmanov |
| | | 2. Vergi orqanının internet səhifəsinin “Ən çox verilən suallar” altbölməsində sualların vergi növləri və tematik mövzular üzrə mütəmadi yenilənməsi | 01.06.2025 | | |
| | | 3. Vergitutma mövzusunda ən çox verilən suallara dair Dövlət Vergi Xidmətinin mövqeyinin vergi orqanının internet səhifəsində yerləşdirilməsi və onların aktuallığının təmin edilməsi | | | |
| | | 4. Vergi öhdəliyinin əvvəlcədən müəyyən edilməsi barədə müraciətlər mexanizminin stimullaşdırılması istiqamətində tədbirlərin görülməsi | 01.07.2025 | | İşçi qrupun üzvləri |
| | | 5. Vergi öhdəliyinin əvvəlcədən müəyyən edilməsi barədə müraciətlər və qəbul edilmiş qərarlarla bağlı məlumatların şəffaflığı və əlçatanlığının təmin edilməsi üçün hesabatlılığın təkmilləşdirilməsi | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.1.2. | Məlumatlandırma işlərinin təşkili | 1. “Vergi orqanlarında xidmət kanallarından istifadə Qaydaları”na əsasən vergi qanunvericiliyinə (inzibatçılığına), sığorta haqlarının hesablanmasına və ödənilməsinə münasibətdə məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və tibbi sığorta qanunvericiliyinə dair vergi ödəyicilərindən gələn sorğuların cavablandırılması | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Elçin Məmmədov |
| | | 2. Qanunvericiliyə edilmiş dəyişikliklər barədə vergi ödəyicilərinin e-kabinetlərinə yazılı məlumatların göndərilməsi | Hər rüb ən azı 1 dəfə | | |
| | | 3. Vergi ödəyicilərinə göndərilməli məktubların vaxtında göndərilmə faizinin, vergi ödəyicilərinin həmin məktublarla əhatə edilmə faizinin, vergi ödəyicilərinə göndərilmiş yazılı məlumatların oxunma faizinin ölçülməsi | | | |
| | | 4. Qanunvericiliyə edilmiş dəyişikliklər və hazırkı Yol Xəritəsinin icrası üzrə əldə olunan əsas nailiyyətlər barədə vergi ödəyiciləri, biznes assosiasiyaları və konsaltinq şirkətlərinin nümayəndələri ilə görüşlərin keçirilməsi | | | |
| | | 5. Vergi ödəyiciləri tərəfindən könüllü icra səviyyəsinin yüksəldilməsi məqsədilə onlara (faktiki və ya hüquqi ünvanlarında) tam ünvanlı xidmətlərin göstərilməsi | Qaydalarda nəzərdə tutulan hallarda və müddətlərdə | | |
| | | 6. Vergi ödəyiciləri tərəfindən vergi öhdəliklərinin vaxtında icrasının təmin edilməsi məqsədilə onlara müvafiq SMS-lərin göndərilməsi | Hər rüb ən azı 1 dəfə | | |
| | | 7. Sığorta haqlarının hesablanmasına və ödənilməsinə münasibətdə məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və tibbi sığorta qanunvericiliyində dəyişikliklər haqqında məlumatların elektron formasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin internet səhifəsində müvafiq bölmədə yerləşdirilməsi | | | Elçin Məmmədov, Rövşən Məmmədov |
| | | 8. Müəyyənliyi və aydınlığı təmin etmək üçün aktual mövzular üzrə izahedici materialların “Vergilər” onlayn sosial-iqtisadi qəzetində dərc edilməsi (https://vergiler.az/) | | | Rövşən Məmmədov |
| | | 9. Vergilərin ödənilməsi və hesabatlılığın | Hər rüb ən | İqtisadiyyat Nazirliyi | Rövşən |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | təkmilləşdirilməsi sahəsində mütərəqqi yeniliklər və onların üstünlükləri barədə müsahibələrin və brifinqlərin təşkili | azı 1 dəfə | (Dövlət Vergi Xidməti) | Məmmədov |
| | | 10. Vergilərin ödənilməsi və hesabatlılığın təkmilləşdirilməsi sahəsində mütərəqqi yeniliklər barədə məlumatların KİV-də yayımlanması | Hər rüb ən azı 1 dəfə | | |
| | | 11. Sahibkarlar, ictimai birliklər və sahəvi assosiasiyalar üçün təşkil olunan təlimlər və onlarla keçirilən digər görüşlər barədə məlumatların KİV-də yayımlanması | | | |
| | | 12. Məlumatların ictimai gündəmdə saxlanılması məqsədilə informativ və statistik materialların KİV-də yayımlanması | | | |
| | | 13. İslahatların üstünlükləri barədə proaktiv materialların KİV-də yayımlanması | Hər rüb ən azı 1 dəfə | | |
| | | 14. Videoçarx, qrafik çarx, animasiyalı infoqrafika və posterlərin hazırlanaraq sosial mediada yayımlanması | Hər rüb ən azı 1 dəfə | | |
| | | 15. Vergi ombudsmanı xidməti baş idarəsinin iştirakı ilə problemli mövzularla bağlı vergi ödəyicilərinin rəy və təkliflərinin öyrənilməsi, bu sahədə maarifləndirici materialların hazırlanaraq yayımlanması | | | |
| ***1.2. Vergi qaydalarında dəyişikliklərin şəffaflığı*** | | | | | |
| 1.2.1. | Rəsmi orqanlar tərəfindən prosedur və proseslərdə gələcək dəyişikliklər barədə biznes subyektlərinə müntəzəm məlumatın verilməsi vəziyyəti | 1. Biznes subyektlərinə müntəzəm məlumatın verilməsinin təmin edilməsi məqsədilə ticarət palataları və assosiasiyaların iştirakı ilə Vergi Məcəlləsinə ediləcək dəyişikliklərə dair layihələr üzrə müzakirələrin keçirilməsi | sentyabr-dekabr 2025-ci il | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Nicat İmanov, Rövşən Məmmədov, Elçin Məmmədov |
| | | 2. Vergi qanunvericiliyinə dəyişikliklər edilməsi ilə bağlı görülmüş işlər barədə məlumatların ictimaiyyətə çatdırılması | Hər rüb | | |
| | | 3. Vergi sahəsində ixtisaslaşmış ekspertlərdən vergi qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin alınması və müzakirəyə çıxarılması | | | Rövşən Məmmədov |
| | | 4. “https://azranking.az/” portalında müraciət edilməsi və təkliflər verilməsi üzrə xidmətlərin mövcudluğuna dair mediada və sosial şəbəkələrdə məlumatların yayımlanması | | | |
| | | 5. “Vergi və hesabatlılıq” işçi qrupunun fəaliyyətinin sosial şəbəkələrdə mövcud olan vergi və mühasibatlıq | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | səhifələrində işıqlandırılması | | | |
| | | 6. Müxtəlif xarakterli onlayn sorğuların keçirilməsi yolu ilə cəmiyyətin islahatlara münasibətinin və gözləntilərinin müəyyən edilməsi | | | |
| ***1.3. Sadələşdirilmiş uçotun aparılması və müvəqqəti müddəalar*** | | | | | |
| 1.3.1. | Mikrosahibkarlar üçün sadələşdirilmiş hesabatlılıq | Mikrosahibkarlar üçün əvvəlcədən doldurulmuş sadələşdirilmiş vergi bəyannamələri sisteminə keçidin təmin edilməsi | 01.09.2025 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Ayaz Əliyev, Zaman Məmmədov |
| ***1.4. Vergitutma məqsədləri üçün qeydiyyat və ƏDV-nin geri qaytarılması*** | | | | | |
| 1.4.1. | Qeydiyyat və artıq tutulmuş vergilərin qaytarılması | 1. Vergi qeydiyyatı prosedurları barədə sxematik məlumatın və statistikanın hazırlanması və onların dərc edilməsi | Hər rüb ən azı 1 dəfə | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Mirzə Mirzəyev, Rövşən Məmmədov |
| | | 2. Artıq ödənilmiş vergilərin daha tez qaytarılması üçün mövcud meyarların təkmilləşdirilməsi | 01.06.2025 | | Ayaz Əliyev |
| **II. Ətraf mühit vergiləri** | | | | | |
| ***2.2. Ümumi çərçivə*** | | | | | |
| 2.2.1 | Yanaşmaların müəyyən edilməsi | Ekoloji vergilərin, o cümlədən karbon qiymətqoyma mexanizmlərinin əhatə dairəsinin müəyyən edilməsi məqsədilə geniş beynəlxalq təcrübənin öyrənilməsi və hazırlanmış icmalın Komissiyaya təqdim edilməsi | 01.07.2025 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Nicat İmanov |
| **III.Vergi inzibatçılığının rəqəmsallaşdırılması alt-indikatoru** | | | | | |
| ***3.1. Vergi ödəyicilərinə göstərilən xidmətlər*** | | | | | |
| 3.1.1. | Vergi ödəyicilərinə təqdim olunan onlayn xidmətlər | Avtomatik doldurulmuş vergi bəyannaməsi sisteminə mərhələli keçidin təmin edilməsi | 01.11.2025 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Ayaz Əliyev, Zaman Məmmədov |
| | | İnternet vergi idarəsi və mövcud elektron xidmətlərin təlimat məqsədli rejimdə (simulyator) istifadəyə verilməsi, eləcə də "Biznes mühitini və vergi yükünü araşdır" və "Vergitutma rejiminin seçimi" adlı yeni elektron xidmətlərin təqdim edilməsi | 01.12.2025 | | Elçin Məmmədov, Zaman Məmmədov |
| 3.1.2. | Vergi və digər dövlət orqanları | Aidiyyəti dövlət qurumları və üçüncü şəxslərlə məlumat mübadiləsinin təşkili və əhatə dairəsinin genişləndirilməsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Roman Bandurin, Zaman Məmmədov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | arasında qarşılıqlı fəaliyyətin və məlumat mübadiləsinin səviyyəsi (məsələn, çarpaz istinad və avtomatik informasiya mübadiləsi) | işlərinin davam etdirilməsi | | | |
| **IV. Vergi auditi** | | | | | |
| ***4.1. Risk əsaslı sistem*** | | | | | |
| 4.1.1 | Sistemin çoxlu sayda müəssisələrə deyil, əsasən yüksək riskli vergi ödəyicilərinə hədəflənməsi | Elektron risk sistemi üzrə uyğunsuzluqların müəyyən edilməsi parametrlərinin genişləndirilməsi və təkmilləşdirilməsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Ayaz Əliyev, Camal Qasımov, Zaman Məmmədov |
| | | Hər il keçirilməsi nəzərdə tutulan səyyar vergi yoxlamalarının sayının risklər əsasında müəyyən edilməsi və təsdiqi | Mütəmadi | | Camal Qasımov |
| **V. Mübahisələrin həlli mexanizmi** | | | | | |
| ***5.1. İlkin instansiyada baxış*** | | | | | |
| 5.1.1. | Mübahisələrin həlli mexanizmlərinin strukturu və müstəqilliyinin qiymətləndirilməsi (mexanizmlərin sadə, şəffaf və müstəqil olması) | Kameral vergi yoxlamaları ilə bağlı uyğunsuzluq mətnlərinin monitorinq edilməsi və nəticələri üzrə müvafiq düzəlişlərin edilməsi | Hər rüb | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Ayaz Əliyev, Camal Qasımov, Zaman Məmmədov |
| | | Vergi ombudsmanı institutunun təbliğatının aparılması, daxil olmuş və baxılmış müraciətlər, görülmüş işlər barədə məlumatların yayımlanması | Hər rüb | | Elçin Məmmədov, Arif Quliyev, Rövşən Məmmədov |
| | | Vergi ombudsmanı institutunun fəaliyyətinin inkişaf etdirilməsi məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi:<br>1. Vergi ödəyicilərinin hüquqlarının qorunması sahəsində ən yaxşı təcrübələrin öyrənilməsi məqsədilə xarici ölkələrə səfərlər təşkil edilməsi və təcrübə mübadiləsinin aparılması;<br>2. İSO 10002:2018 (Müştəri məmnunluğunun təmin edilməsi və şikayətlərin idarə olunması) beynəlxalq standartlarının araşdırılması və bu standartların tətbiqi imkanları barədə təkliflərin hazırlanması; | 01.09.2025 | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 3. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin internet səhifəsində Vergi Ombudsmanı üçün xüsusi bölmənin təkmilləşdirilməsi, həmin bölmədə onlayn müraciət imkanlarının yaradılması və zəruri sənəd və statistik məlumatların həm Azərbaycan, həm də ingilis dillərində yerləşdirilməsi. | | | |
| **VI. Vergi orqanında idarəetmə** | | | | | |
| ***6.1. Şəfafflıq*** | | | | | |
| 6.1.1 | İctimaiyyətə açıqlıq | Alt komponentin tələbləri nəzərə alınmaqla İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin internet səhifəsinin “Statistika-Hesabat” bölməsinin daha da təkmilləşdirilməsi, “Gələcək strategiyalar/planlar” bölməsində müvafiq dövlət proqramlarında və tədbirlər planlarında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əsas icraçı kimi müəyyən edildiyi istiqamətlər üzrə tədbirlərin, onların icrasına dair qısa məlumat və statistik göstəricilərin yerləşdirilməsi və yenilənməsi. | Hər rüb (məlumatların yerləşdirilməsi və yenilənməsi) | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Rövşən Məmmədov, Nicat İmanov, Zaman Məmmədov |